# Ana dilimizi sevək və qoruyaq



Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə 21 fevral Beynəlxalq Ana dili günü ilə əlaqədar "Ana dilimizi sevək və qoruyaq" adlı tədbir keçirilib. Tədbirdə çıxış edənlər Ümummilli Lider Heydər Əliyevin dilimizin dövlət dili səviyyəsinə yüksəlməsində, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasında, inkişaf etdirilərək bugünkü səviyyəyə çatdırılmasında əvəzsiz xidmətlərindən bəhs edərək, ana dilimizin qorunması istiqamətində Ulu Öndər Heydər Əliyevin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirildiyini diqqətə çatdırmışlar. Sonda mövzu ilə bağlı videoçarx nümayiş olunmuşdur.




Xocalı faciəsini hörmətlə anırıq.

# Hüzr məclisləri və bu günümüz

(Əvvəli 6-cı səhifədə).

***- Dəfn günündən sonra 3, 7, cümə axşamları, 40 və 52, həmçinin il məclisləri, mövludlar dini bilgilərimizdə vacib sayılırmı?***

- İslam dinində ilk gündən ölü üçün 3 gün yas saxlanılıb. Cümə axşamıarı, 40 kimi mərasimlər zamanla formalaşdırılmışdır. Qeyd etdiyimiz kimi, keçmişin bütün adətlərini bu günə daşımağa məcbur deyilik. Ancaq qeyd edək ki, bəzi adətlər öz zamanına görə vacib sayılırdı. 70 il sovet rejimində yaşayarkən çox zaman insanlar dinimizdən kənar saxlanılmışdır. Cümə axşamları dindarlığın saxlanılması, dinimizin təbliği üçün vasitə olub. Din adamları yas mərasimlərində ayələrini əhaliyə çatdırmağa çalışıblar. Hazırda elm inkişaf etmiş, insanların öz dininə hörmət və ehtiramı yüksəlmişdir. Artıq İlahiyyat institutumuz, ilahiyyatçı alimlərimiz vardır. Həmçinin sosial şəbəkələrdə belə hər kəs dindən danışa bilər.

7, 40, 52 və il məclislərinin qeyd olunması adət şəklini almışdır. Bunların rəmzi məna daşıması düşünülür. Bu rəqəmlərin heç bir elmi əsası yoxdur. 52 mərasimi bəzi bölgələrdə, xüsusilə şimal bölgəsində keçirilir. Bu mərasimlərin keçirilməsi dini ayinlər deyil, ənənə üzərində qurulmuş yas mərasimlərinin adətləridir!

***- Qəbiristanlıqların qorunub saxlanılması, təmizliyə riayət edilməsi barədə nə deyə bilərsiniz?***

- Qəbiristanlıqların səliqəli saxlanılması və qorunmasını heç vaxt hansısa bir qrumun üzərinə atmaq doğru deyil. İnsan öz evini necə səliqəli və təmiz saxlayırsa, hər kəsin son "evi", mənzili olan qəbiristanlıqların da təmizliyinə diqqət etməyi və qorumağı özünə müqəddəs borc bilməlidir.

***- Müasir hüzr məclislərinin keçirilməsi ilə bağlı insanlara bir hörmətli imam kimi hansı tövsiyələri edərdiniz?***

- Rayonumuzda rayon rəhbərliyi və dini qrum rəhbərləri hüzr məclislərinin nümunəvi şəkildə keçirilməsinin təşkil edirlər.

Müasir dövrün hüzr məclislərində israfçılığa yol verməyək, dünyasını dəyişən kəsin əzizlərinin ağır xərc çəkərək, o borcu ödəməsini, ən başlıcası kiminsə hüzr məclisindən aşağı səviyyədə ehsan verilməsi düşüncələrindən, qınaq mövzusundan uzaq olmağı tövsiyə edərdim. Sadə çay belə ehsan sayılır. Təmtəraqlı məclislərdə də, sadə çayla da ölü yiyəsinə təziyəyə gələnlər "Allah rəhmət eləsin!", "Allah qəbul etsin!" deyirlər. Buna görə də hüzr məclislərinin sadələşdirilməsi, yas - ehsan verən insanların həyat tərzinə müsbət təsir edəcək.

***- Bildiyimiz kimi, siz dini ayinlər zamanı dualarınızı öz ana dilimizdə deyirsiniz, yəni dini məclislərdə ərəb dilindən tərcüməni insanlara çatdırırsınız. Yəqin ki bu, dinimiz kimi dilimizə qoyulan ehtiram və hörmətdən irəli gəlir.***

- Quranın ərəb dilində oxunması namazda vacibdir. Ancaq namaz xaricində öz dilimizdə oxunması insanların nəyə "Amin!" deməsini bilməsi daha vacib və məqsədəuyğundur. Axı Rəbbim bizi hər dildə eşidir; o həm eşidən, həm də görəndir.

***- Sizin bu yaxınlarda həcc ziyarərundə olduğunuzu eşitdik. Ziyarətiniz qəbul olsun! Bu ziyarətin sizə necə təsir bağışladığı haqda bilmək istərdik.***

- Yanvarın 26-da anam və həyat yoldaşımla birlikdə kiçik həcc ziyarətində, Ümrədə olduq. Allah nəsib elədi, xeyirxah insanlara minnətdaram. Məkkə və Mədinənin çox gözəl abu-havası var idi. Məkkə ata heybəti, Mədinə ana şəfqəti ilə bizi qarşıladı. Bir düşünün ki, neçə illərdir üzümüz Qibləyə namaz qıldığımız Kəbə - Beydullah Allah evini tam gözümüz qarşısında görürük. Həmçinin bütün insanları abi-ehramda görürük. Bir daha Allah evində bütün insanların eyni olduğunu gördük. Allahdan arzu edirəm ki, belə ziyarət hər kəsə nəsib olsun!

***- Müsahibəyə görə çox sağ olun, Mehman əfəndi!***

**Bibixanım İSAYEVA.**

# Əsrin faciəsi

(Əvvəli 4-cü səhifədə).

Bu faktlar Xocalıda törədilənlərin spontan hərbi əməliyyat deyil, planlaşdırılmış soyqırımı olduğunu sübut edir. BMT-nin 9 dekabr 1948-ci il tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalar haqqında" Konvensiyasına əsasən, müəyyən milli, etnik və ya dini qrupun tam və ya qismən məhv edilməsi niyyəti ilə törədilən əməllər soyqırımı cinayətidir. Xocalıda bu cinayətin bütün hüquqi elementləri mövcud olmuşdur. Mülki əhalinin məqsədli şəkildə öldürülməsi, xüsusi qorunan milli-etnik qrupun hədəf seçilməsi, qrupun fiziki məhvinə yönəlmiş xüsusi niyyət deyilənlərin tam sübutudur.

Azərbaycan Respublikasında aparılan istintaq bu cinayətlər üzrə cinayət təqibinin davam etdirilməsi üçün tam hüquqi əsasların mövcudluğunu təsdiqləmişdir. Xocalı faciəsinə ilk fundamental siyasi-hüquqi qiymət Ulu Öndər Heydər Əliyev tərəfindən verildi. Onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etdi. 1997-ci ildə imzalanan Sərəncamla hər il fevralın 26-da saat 17<sup>00</sup>-da ölkə ərazisində ümummilli sükut dəqiqəsi elan olundu. Bu, yalnız matəm deyil, milli yaddaşın siyasi manifesti idi. Xocalı həqiqətləri təkcə Azərbaycan mənbələri ilə deyil, dünya mətbuatının obyektiv müşahidələri ilə təsdiqlənmişdir. "Le Monde", "The Times", "Financial Times", "İzvestiya" kimi nüfuzlu nəşrlər Xocalıda törədilən vəhşilikləri açıq şəkildə təsvir etmiş, bunun "təbliğat deyil, reallıq" olduğunu vurğulamışlar. Bu gün Xocalı soyqırımı 18 ölkənin parlamenti, ABŞ-ın 24 ştatı, İslam Əməkdaşlıq Təşkilatı tərəfindən soyqırımı kimi tanınmışdır. "Xocalıya ədalət!" kampaniyası isə bu həqiqətlərin beynəlxalq miqyasda yayılmasında mühüm rol oynayır.

2020-ci ilin Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatları ilə Azərbaycan dövləti təkcə torpaqlarını deyil, tarixi ədaləti də azad etdi. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Xocalı şəhidlərinin qanını yerdə qoymadı. 2023-cü il oktyabrın 15-də Xocalıda Dövlət Bayrağının ucaldılması soyqırımı tarixindən Zəfər tarixinə keçidin rəmzi oldu. Bu gün Xocalı dirçəlir, insanlar doğma yurdlarına qayıdır, Memorial Kompleksi ucaldılır. Xocalı artıq yalnız faciənin adı deyil, qayıdışın, dirənişin və qalibiyyətin adıdır. Xocalı soyqırımı unudulmur. Unudula da bilməz. Çünki Xocalı yaddaşdır, hüquqdur, mübarizədir. Və bu gün artıq Xocalı həm də Zəfərdir. Azərbaycan xalqı Xocalını unutmadı. Azərbaycan dövləti Xocalının qisasını aldı. Tarix ədalətini tapdı.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ səsi"**

# Qəbələyə gələn turistlərin sayı artıb

2026-cı ilin yanvar ayında Qəbələ rayonunun hotel və mehmanxana tipli müəssisələrinə 7533 nəfər turist yerləşdirilib. Onların 4393 nəfəri və ya 58,3 faizi Azərbaycan, 3140 nəfəri və ya 41,7 faizi xarici ölkə vətəndaşı olub. Bu 2025-ci ilin eyni dövrü ilə müqayisədə 586 nəfər və ya 8,4 faiz artıqdır. Yerli turistlərin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 473 nəfər və ya 12,1 faiz, əcnəbi turistlərin sayında isə 113 nəfər və ya 3,7 faiz artım qeydə alınıb. Əcnəbi turistlər arasında Hindistan vətəndaşları üstünlük təşkil edib. Turistlər arasında Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Pakistan, Küveyt, Rusiya Federasiyası, Qətər, Türkiyə, Oman, Gürcüstan, İsrail, Bəhreyn, ABŞ-nın da vətəndaşları olub.





qəzetinə

**2026-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*


## İTMİŞDİR

Qəbələ şəhər sakini **Həşimov Toğrul Müşviq oğluna** məxsus, FHN Şimal-Qərb Regional Mərkəzi tərəfindən verilmiş **xidməti vəsiqə itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Bum qəsəbə sakini **Zeynalov Nizami Füzuli oğluna** məxsus, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bilet itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Daşca kənd sakini, "Lazeez İdian-Arabic" restoranının sahibi **Abdullazadə Mənzər Azər qızına** məxsus **kassa aparatı itdiyi üçün** etibarsız sayılır.


Baş redaktor
Azad Məmmədov

TƏSİSÇİ:
Azad MƏMMƏDOV

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24
(024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149
VÖEN: 4402717261
Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1000*